# Fikir azadlığına Qərbin qərəzli münasibəti davam edir - Prezident sərt danışdı...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Müasir demokratik cəmiyyətlərin təməlini insan hüquqları və azadlıqları təşkil edir. Bu hüquqlar arasında ən mühüm olanlardan biri də fikir, söz və məlumat azadlığıdır. İnsanların öz fikirlərini sərbəst ifadə edə bilməsi, azad şəkildə informasiya əldə etməsi və müxtəlif düşüncələrin bir arada mövcud olması sağlam və inkişaf etmiş bir ictimaiyyətin əsas göstəricisidir.**

Fikir azadlığı insanların daxili inanclarını sərbəst şəkildə formalaşdırmaq və bu fikirləri cəmiyyətə çatdırmaq hüququnu təmin edir. Bu hüquq həm fərdi inkişaf, həm də cəmiyyətin tərəqqisi üçün olduqca vacibdir. İnsanlar müxtəlif mövzularda sərbəst düşünə və bu fikirlərini paylaşa bildikdə, ictimai müzakirələr canlanır, problemlərin həlli yolları daha çox müzakirə olunur və nəticədə daha effektiv qərarlar qəbul edilir.

### Bu gün Azərbaycanda fikir, söz və məlumat azadlığı, plüralizm inkişaf edir

Azərbaycanda azad medianın, insan hüquq və azadlıqlarının müdafiəsi demokratik mexanizmlərinin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir. Bu gün Azərbaycanda fikir, söz və məlumat azadlığı, plüralizm inkişaf edir. Ölkə söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdən hesab edilir. Kütləvi İnformasiya Vasitələri - qəzetlər, jurnallar, televiziya və radiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Fikir, söz və məlumat azadlığının inkişafı təkcə hüquqi təminatlarla məhdudlaşmamalıdır. Bu sahədə davamlı maarifləndirmə, media savadlılığının artırılması, təhsil sistemində tənqidi düşüncənin təşviqi də önəmlidir. Eyni zamanda, hökumətlərin və ictimai institutların vəzifəsi təkcə bu azadlıqları qorumaq deyil, onların inkişafı üçün münbit mühit yaratmaqdır. İnternetin və sosial medianın geniş yayılması ilə söz azadlığının sərhədləri daha da genişlənmişdir, lakin bu azadlığın məsuliyyətlə istifadəsi də ön plana çıxmışdır. Nəticə etibarilə, fikir, söz və məlumat azadlığı, plüralizmlə birlikdə cəmiyyətin demokratikləşməsi, fərdi hüquqların qorunması və ictimai rifahın artırılması üçün əsas şərtlərdən biridir. Bu dəyərlərin qorunması və inkişaf etdirilməsi yalnız dövlətin deyil, hər bir vətəndaşın üzərinə düşən ortaq məsuliyyətdir.

### Heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir

Ötən il Prezidenti İlham Əliyev Almaniya Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransı keçirən zaman xarici jurnalistlərdən birinin Azərbaycanda mövcud olan mətbuat azadlığı ilə bağlı sualını konkret arqumentlərlə belə cavablandırıb: "Azərbaycanda media azadlığı təmin edilir. Azərbaycanda heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir. Ona görə Azərbaycanı medianın inkişafını guya əngəlləmək istiqamətində atılmış addımları ilə tənqid etmək ədalətsiz olardı. Əgər internet azaddırsa, hansı məhdudiyyətdən söhbət gedə bilər? Fərdi məsələlərə, hadisələrə gəldikdə isə təbii ki, hüquq-mühafizə orqanları bütün məsələləri araşdırırlar. Bir müddət bundan əvvəl xaricdən qanunsuz maliyyələşən bəzi media orqanlarının nümayəndələri istintaq orqanları tərəfindən saxlanılıb. Bu da Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə aparılıb. İstənilən ölkə öz qanunlarını müdafiə etməlidir. Əgər xaricdən qanunsuz vəsait alan hansısa media nümayəndəsi istintaqa cəlb edilibsə, o demək deyil ki, bizdə media azad deyil. Sadəcə olaraq, hər kəs qanun çərçivəsində fəaliyyət göstərməlidir. Biz istənilən ölkə kimi öz media məkanımızı xarici neqativ təsirdən qorumalıyıq və hər kəs qanunlara əməl etməlidir. Bir sözlə, demək istərdim ki, Azərbaycanda azad cəmiyyət var, insanlar tam azad və sərbəst şəkildə yaşayırlar, qururlar, yaradırlar, o cümlədən media nümayəndələri də".



### Bu məsələdə Prezident Əliyevlə razılaşmamaq mümkün deyil

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən media ekspert Yadigar Məmmədli hesab edir ki, zaman-zaman müxtəlif xarici dairələr Azərbaycanda mətbuat azadlığının olmaması görüntüsünü yaratmağa cəhd ediblər: "Sistemli şəkildə Azərbaycana qarşı qaralama kampaniyası aparılır. Hər vasitə ilə elə rəy yaratmağa çalışırlar ki, guya Azərbaycanda media azad deyil. Cənab Prezident bir sıra xarici səfərlərində tutarlı arqumentlərlə bəyan edib ki, Azərbaycanda mətbuat azadlığı üçün hansısa maneə yoxdur. Müəyyən xarici jurnalistlər bununla bağlı təxribatçı xarakterli suallar verirlər. Lakin fakt odur ki, Azərbaycanda media azadlığı təmin edilir. Doğurdan da bu məsələdə Prezident Əliyevlə razılaşmamaq mümkün deyil. Çünki hər şey ortadadır. Ölkəmizdə kim istəyir öz fikrini azad şəkildə ifadə edə bilir. Bu gün əhali ən çox sosial media resurslarından informasiya əldə edir. Kim istəyir bu resurslardan istifadə edir, öz fikrini azad şəkildə ifadə edir. Ona görə də Azərbaycanı mətbuat azadlığına görə tənqid etmək, iddia etmək ki, guya ölkədə media azad deyil, bu, doğru deyil. Nəzərə almaq lazımdır ki, mətbuat azadlığı geniş bir anlayışdır və içində bir sıra komponentlər var. Mətbuatın azad yazması, onu azad şəkildə yayması, tirajlaması onu göstərir ki, bizdə söz azadlığının olmaması barədə deyilənlər həqiqəti əks etdirmir. Azərbaycan internetə əlçatanlıq baxımından bir sıra ölkələrdən öndədir. Belə olan halda hansı məhdudiyyətlərdən söhbət gedə bilər? İstənilən Azərbaycan vətəndaşı sərbəst şəkildə sosial şəbəkədə fikirlərini ifadə edə bilir. Bu da medianın bir sahəsidir. Bu baxımdan Azərbaycanda mətbuat azadlığının olmaması barədə deyilənlər həqiqəti əks etdirmir".

***Vidadi ORDAHALLI***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**